Azərbaycan Respublikasının
Təhsil İnstitutu

**RESPUBLİKA FƏNN OLİMPİADALARI**
**BAKI - 2017**

# TARİX – XI SİNİF

*Şənbə, 22 aprel 2017*

1. **Verilmiş tapşırığı qarşısında *hə* və ya *yox* cavablarını işarələməklə (v) yerinə yetirin:(10 bal)**

| N: | Tapşırıqlar | Hə | Yox |
|---|---|---|---|
| 1. | 1917-ci ilin martında Müsəlman Milli Şurası yaradılanda, bolşeviklərdən N. Nərimanov və M.Əzizbəyov Milli Şuranın tərkibinə daxil edilmişdilər | | |
| 2. | XX əsrin əvvəllərində Fransa sənayenin ümumi inkişafına görə Avropada ikinci yerdə idi | | |
| 3. | Mancur imperatoru Syan Lunun hakimiyyəti illərində ensiklopediya və lüğətlər tərtib edilir, əvvəlki illərdə yazılmış əsərlər nəşr olunurdu | | |
| 4. | Məhəmməd Aminin başçılıq etdiyi üsyançılar Salyan yaxınlığında Şirvanşahların qoşunu tərəfindən darmadağın edildi | | |
| 5. | Kürəkçay müqaviləsinə əsasən, İbrahimxəlil xan Tiflisdə həmişəlik yaşamaq şərti ilə girov verməli idi | | |
| 6. | Venesiya XIV əsrdə öz yeganə rəqibi olan Bizansı Şərqlə ticarətdə vasitəçilikdən sıxışdırıb çıxardı | | |
| 7. | XVIII əsrdə Şimali Qafqazda yaşayan noqayların əsas məşğuliyyəti əkinçilik və maldarlıq idi | | |
| 8. | 1910-cu ildə İngiltərənin xarici kapital qoyuluşu ABŞ və Almaniyanın birlikdə xarici kapital qoyuluşundan çox idi | | |
| 9. | XX əsrin əvvəllərində Azərbaycanın balıq sənayesi məhsulu Rusiyaya və oradan da xarici ölkələrə göndərilir, az bir hissəsi isə Cənubi Qafqaz bazarlarında satılırdı | | |
| 10. | Strabonun yazdığına əsasən, Kanidi iber və alban hökmdarlarına qalib gəlmişdi | | |

**2. Mətni tamamlayın: 10 bal**

XVIII əsrdə Şimali Qafqaz etnik müxtəlifliyi ilə fərqlənirdi. Şimali Qafqazın qərbində _______________ yaşayırdılar. Çərkəzlər adlanan _____________________ ölkəsi Çərkəzistan adlanırdı. Onların qonşuluğunda ___________________ yaşayır və iki feodal hakimliyə - _________________________ və _________________________ bölünürdülər. Noqaylar ______________________ çayından ____________________ qədər geniş ərazidə yaşayırdılar, XVIII əsrdən etibarən Böyük Ordu və Kiçik Orduya bölünürdülər. Qafqaz sıra dağlarının şimal ətəklərində _______________ və ____________________ yaşayırdılar. ___________________ isə Mərkəzi Qafqazın dağlıq ərazilərində yaşayırdılar.XVIII əsrdə onların etnik ərazi sərhədləri dəyişikliyə məruz qaldı və bir hissəsi Cənubi Qafqaza köç etdilər.

**3. Xəritə-sxemdə XX əsrin 40-cı illərində SSRİ-nin təsiri ilə çoxpartiyalı sistemlərin ləğv olunduğu dövlətlərin ərazilərini müəyyən edərək rəngləyin və adlarını qeyd edin: (10 bal)**



**4. XVIII əsrin I yarısında Osmanlıların digər dövlətlərlə imzaladığı müqavilələrə dair cədvəl hazırlayın və məlumatları daxil edin: (10 bal)**

**RESPUBLİKA FƏNN OLİMPİADALARI**
**BAKI - 2017**

**5. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət idarəetməsinə dair sxem çəkərək məlumatları daxil edin və onu təhlil edin: (10 bal)**

**RESPUBLİKA FƏNN OLİMPİADALARI**
**BAKI - 2017**

**6. XVII əsrin sonlarında Səfəvilər dövlətində yaranmış pul böhranını aradan qaldırmaq üçün əsaslandırılmış layihə hazırlayın (maksimal 1 səhifə həcmində): (10 bal)**